# “Böyük Zəfərin 101 şəhidi!” kitabının təqdimatı keçirilib






Bu yaxınlarda müstəqil araşdırmaçı jurnalist, yazıçı Aydın Tağıyevin “Vətən” layihəsi çər-



çivəsində İkinci Qarabağ müharibəsinin 101 şəhidi haqqında müsahibələrindən ibarət olan “Böyük Zəfərin 101 şəhidi!” kitabı ictimaiyyətə təqdim olunub. AMEA-nın Mərkəzi Elmi Kitabxanasında keçirilən tədbirdə şəhid anaları, yaxınları, elm və ictimaiyyət nümayəndələri iştirak ediblər. Tədbir Vətənin azadlığı uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Qonaqları salamlayaraq, giriş nitqi ilə çıxış edən müəllif kitab haqqında qısa məlumat verərək, İkinci Qarabağ müharibəsinin üç mindən artıq şəhidindən hələ ki 101-nin qəhrəmanlıq tarixini qələmə ala bildiyini qeyd edib. Onun sözlərinə görə, kitabın yazılmasında əsas məqsəd İkinci Qarabağ müharibəsində şəhid olmuş qəhrəman Azərbaycan oğullarının igidlikləri, yenilməz Azərbaycan ordusunun şücaəti barəsində gələcək nəsilləri məlumatlandırmaqdır.

Tədbirdə, həmçinin sözləri Aydın Tağıyevə məxsus olan “İlk Zəfər Marşı” da səsləndirilib. Daha sonra şəhidlərin ailə üzvləri və digər qonaqlar çıxış edərək, təəssüratlarını və kitab haqqında fikirlərini bölüşüblər.

Sonda müəllif layihədə iştirak edən hər kəsə təşəkkürünü bildirib, tədbir sözləri Aydın Tağıyevə aid olan “Vətən” marşı ilə yekunlaşıb.

**Mətanət Hüseynova**

İqtisadiyyat. - 2023.- 22 iyun-5 iyul.- S.8.